“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 1 (20) ✦ 31 yanvar 2026-cı il

# 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair Balakən Rayon İcra Hakimiyyəti başçısının hesabat yığıncağı keçirilib








Yanvarın ayının 12-də rayon icra hakimiyyətinin inzibati binasında 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair Balakən Rayon İcra Hakimiyyəti başçısının hesabat yığıncağı keçirilib.

Hesabat yığıncağında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 9-cu ərazi sektorunun müdiri İlqar Süleymanov, Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, Milli Məclisin deputatı Nəsib Məhəməliyev, RİH başçısı yanında Şuranın üzvləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, inzibati ərazi dairələri üzrə nümayəndələr, bələdiyyə sədrləri,şəhid ailələri, qazilər, veteranlar və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yığıncaqda hesabat məruzəsi ilə çıxış edən Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev yola saldığımız ildə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında baş vermiş mühüm hadisələrdən danışıb. Bildirilib ki, ötən il bizim üçün ən mühüm hadisə Azərbaycan və Ermənistan arasında uzun illərdir gözlənilən sülh istiqamətində müsbət nəticələrin əldə edilməsi olub. 2025-ci il dövlətimizin başçısının müvafiq Sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan olunması, Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünün böyük təntənə ilə qeyd edilməsi ilə əlamətdar olub. Eyni zamanda RİH başçısı ötən il sosial-iqtisadi sahədə Balakən rayonunda görülmüş işlərdən və qarşıda duran vəzifələrdən bəhs edib.








Hesabat yığıncağında çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 9-cu ərazi sektorunun müdiri İlqar Süleymanov, Milli Məclisin deputatı Nəsib Məhəməliyev, Balakən Rayon Statistika İdarəsinin müdiri Əsəbəli Alqayev, Meliorasiya və Suvarma Sistemlərinin İstismarı İdarəsinin rəisi Eldəniz Xudeynatov, rayon Elektrik şəbəkəsinin rəisi Sabit Məmmədov, rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev ötən il Prezident İlham Əliyevin rəhbərliyi ilə xarici siyasət sahəsində əldə olunmuş uğurlardan, ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, əhalinin sosial rifah halının yüksəl-dilməsinə yönəlmiş tədbirlərdən, Balakən rayonunda ayrı-ayrı sahələrdə görülmüş işlərdən danışılıb.Yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

**Yeni Balakən**

# Qida təhlükəsizliyi: Marketlərdə səhlənkarlıq, saxta içkilər və istehlakçının hüquqları

Azərbaycanda qida təhlükəsizliyi məsələsi təkcə məhsulun keyfiyyəti ilə məhdudlaşmır. Bu, həm də onun düzgün saxlanması, təqdimatı, istehlakçıya hörmətlə yanaşılması və qanunlara uyğun şəkildə satışa çıxarılması deməkdir. Təəssüf ki,rayonumuzda da bir çox yerli marketlərdə bu sahədə ciddi səhlənkarlıq müşahidə olunur.

**Səhlənkar yerləşdirmə: məhsulun taleyi rəfdə başlayır**

Marketlərdə məhsulların necə gəldi düzülməsi, yerə qoyulması, toz basmış şəkildə təqdim edilməsi istehlakçıya qarşı açıq hörmətsizlikdir. Soyuducuda saxlanmalı olan məhsullar otaq temperaturunda, son istifadə tarixi keçmiş mallar isə yenilərlə yanaşı satılır. Bu, həm sağlamlıq üçün risk yaradır, həm də qanun pozuntusudur.

**Biliksizlik: market sahibləri və personalın məsuliyyəti**

Böyük marketlərdə – məsələn, “Bazarstore” kimi – marketinq və satış biliklərinə sahib personalın olması bu problemləri azaldır. Lakin əksər kiçik və orta marketlərdə bu sahədə ciddi boşluqlar var. Satıcılar yalnız “mal ver, pul al” prinsipi ilə işləyir, məhsulun necə təqdim olunmalı olduğunu, hansı məhsulların yanaşı qoyulmamalı olduğunu bilmirlər. Bu isə qida təhlükəsizliyini birbaşa təhdid edir.

**Saxta spirtli içkilər: xəstəxanaya və ya həbsxanaya aparan yol**

Bazarlarda və bəzi marketlərdə satılan spirtli içkilərin böyük hissəsi sintetik spirtdən hazırlanır. Bu cür içkilər insan sağlamlığı üçün son dərəcə təhlükəlidir. Onların üzərində “son istifadə tarixi”nin yazılması isə istehlakçını çaşdırmaqdan başqa bir şey deyil. Təbii spirt illərlə saxlanıla bilər və zamanla daha da saflaşır. Saxta içkilər isə qısa müddətdə zərərli təsir göstərir və nəticədə insan ya xəstəxanaya düşür, ya da hüquqi məsuliyyətə cəlb olunur.

**İstehlakçının hüquqları və dövlətin rolu**

Bu halların mövcudluğu həm maddi, həm də mənəvi zərər deməkdir. İstehlakçının hüquqları pozulur, sağlamlığı risk altına düşür. Ticarət qanunlarla tənzimlənməlidir və bu sahəyə nəzarət edən dövlət qurumları – xüsusilə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) – daha aktiv olmalıdır.

AQTA yalnız yoxlamalarla kifayətlənməməli, həm də maarifləndirmə işləri aparmalıdır. Market sahibləri və personal üçün seminarlar təşkil edilməli, media vasitəsilə istehlakçılar mütəmadi məlumatlandırılmalıdır. Bu, problemin kökündən həllinə doğru atılmış real addım ola bilər.

**Nəticə: təhlükəsizlik hər kəsin məsuliyyətidir**

Qida təhlükəsizliyi cəmiyyətin sağlamlığı və rifahı üçün vacibdir. Hər bir vətəndaş, satıcı və dövlət qurumu bu sahədə məsuliyyət daşıyır. Maariflənmə, nəzarət və ictimai iştirak bu problemin həllində əsas rol oynayır. İstehlakçılar da daha diqqətli olmalı, hüquqlarını bilməli və pozuntulara qarşı səsini ucaltmalıdır.

**Ramazan Abal**



# “BALACANS” MMC-də yeni inkişaf mərhələsi: Rayon rəhbəri Natiq Ağayev istehsal prosesi ilə tanış oldu







Balakən rayonunun sosial-iqtisadi inkişafı istiqamətində ardıcıl addımlar atan rayon rəhbəri Natiq Ağayevin tanışlıq səfərləri davam edir. Bu dəfəki səfər “BALACANS” Məhdud Məsuliyyətli Cəmiyyətinə yönəldi. Səfərin məqsədi müəssisənin istehsal potensialı, əməkdaşlıq imkanları və gələcək planları ilə yaxından tanışlıq idi.

Tanışlıq görüşü müəssisənin rəhbəri Abdulqədir Əli oğlu Ansuski ilə başladı. İlk dayanacaq isə “BALACANS” MMC-nin nəzdində fəaliyyət göstərən və bir sıra respublika əhəmiyyətli tədbirlərə ev sahibliyi etmiş Heydər Əliyev Mərkəzi oldu. Mərkəzin fəaliyyəti, burada yaradılan şərait və ictimai əhəmiyyətli təşəbbüslər rayon rəhbəri tərəfindən yüksək qiymətləndirildi.

Daha sonra Natiq Ağayev müəssisənin istehsal sahələrini və sexlərini gəzərək burada istehsal olunan məhsullarla yaxından tanış oldu. Müəssisə rəhbəri Abdulqədir Ansuski tərəfindən təqdim olunan məlumatlar çərçivəsində “BALACANS”ın ortaqları, əməkdaşlıq etdiyi beynəlxalq brendlər, mövsümi və daimi istehsal prosesləri, eləcə də gələcək inkişaf planları barədə geniş təqdimat keçirildi.

Rayon rəhbəri müəssisədə yaradılan müasir infrastruktur, iş şəraiti və texnoloji imkanları yüksək qiymətləndirərək bir sıra tövsiyələrini bildirdi. O, Balakən üçün vacib olan sahələrin məhz bu kimi müəssisələrdə inkişaf etdirilməsinin mümkünlüyünü vurğuladı və bununla da yerli əhalinin işlə təmin olunması baxımından əhəmiyyətli addım ola biləcəyini qeyd etdi.

Görüşün sonunda onu demək olar ki, “BALACANS” MMC Balakənin iqtisadi həyatında öz dəsti-xətti ilə seçilən, dinamik fəaliyyəti ilə rayonun rifahına töhfə verən aparıcı müəssisələrdən biridir. Müəssisənin yaxın gələcəkdə daha böyük layihələrə imza atacağı və Balakənin inkişafında mühüm rol oynayacağı gözlənilir.

Bu inkişafın arxasında isə güclü siyasi və idarəetmə dəstəyi dayanır. Belə ki, cənab Prezidentin 12 noyabr 2025-ci il tarixli sərəncamı ilə rayonda yeni idarəetmə mühiti formalaşdırılıb və bu mühit sahibkarlığın, innovasiyanın və əmək bazarının inkişafına tam dəstək verir.Yeni Balakən adından cənab Prezidentə təşəkkürümüzü bildirir, rayon rəhbəri Natiq Ağayevə, “BALACANS” MMC-yə və onun fədakar rəhbəri Abdulqədir Əli oğlu Ansuskiyə uğurlar arzulayırıq.

“Artıq əngəl yoxdur. Tam dəstək var.” — Natiq Ağayev.

**Yeni Balakən**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq qərara alıram:

**NATİQ NUŞRAVAN OĞLU AĞAYEV**

Balakən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 12 noyabr 2025-ci il



## Balakən Rayon İcra Hakimiyyəti Aparatının Strukturu

İcra hakimiyyətinin başçısı
RİH başçısının birinci müavini-Vakant
Başçının müavini-Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri
Dibirov Turan Eldar oğlu - 1986-cı ildə Balakən rayonunun Qullar kəndində anadan olmuşdur.

2007-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını iqtisadiyyat və idarəetmə ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmiş, 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə magistr təhsili almışdır.

Əmək fəaliyyətinə 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Dövlət Komissiyasının müsabiqə və müsahibə mərhələsindən uğurla keçərək, Balakən Rayonu Gənclər və İdman İdarəsində gənclərlə iş üzrə aparıcı məsləhətçi vəzifəsi ilə başlayıb. 2011-ci ildə Balakən Rayon İcra Hakimiyyəti başçısı Aparatında Sosial-iqtisadi məsələlər şöbəsində aparıcı məsləhətçi vəzifəsinə təyin olunub. Beş il bu vəzifədə işlədikdən sonra qulluqda yüksəliş yolu ilə Balakən Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsində müdir müavini vəzifəsinə təyin olunub. Altı il bu vəzifədə çalışdıqdan sonra 26.09.2022-ci il tarixdə qulluqda yüksəliş yolu ilə Balakən Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsinə təyin olunub. 19.01.2026-cı il tarixdən Balakən Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

2011-ci ildən YAP-nın üzvüdür. Evlidir, 2 övladı var.

RİH başçısının köməkçisi-Vakant
Başçının müavini-Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdiri-Vakant
Böyük məsləhətçi-Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi - Əfəndiyeva Gültac Rauf qızı
Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi
Ərazi-təşkilat məsələləri sektoru
Şöbə müdirinin müavini-sektor müdiri - Vakant
Baş məsləhətçi - Mamedov Abid Şaban oğlu
Böyük məsləhətçi - Abbasov Rəhim İsbəndiyar oğlu
Müharibə iştirakçıları və şəhid ailələri ilə işin təşkili sektoru
Sektor müdiri - Vakant
Böyük məsləhətçi - Ağayev Ağa Elman oğlu
Məsləhətçi - Nuriyev Şamil Nazim oğlu
İctimai-siyasi və humanitar məsələlər sektoru
Sektor müdiri - Nəcəfov Fariz İftixar oğlu
Baş məsləhətçi - Pəhlivanov Emil Nürəddin oğlu
Aparıcı məsləhətçi- Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın məsləhətçi-psixoloqu - Əliyeva Arzu Araz qızı
Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsi
Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlili sektoru
Şöbə müdirinin müavini-sektor müdiri - Əhmədov Araz Sabir oğlu
Baş məsləhətçi (əhali ilə görüşün təşkilatçısı) - Hüseynov Anar Qurban oğlu
Aparıcı məsləhətçi (operator) - Bağırov Aqil Aslan oğlu
Məsləhətçi - Abdullayev Kamal Səyavuş oğlu
Memarlıq-tikinti məsələləri sektoru
Şöbə müdirinin müavini-sektor müdiri (baş memar) - Vakant
Böyük məsləhətçi - Omarov Daniya Abdulla oğlu
Aparıcı məsləhətçi - Vakant
Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsi
Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri-Hacıxanova Nərgiz Nəbiyullah qızı
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş sektoru
Sektor müdiri - Vakant
Məsləhətçi (dəftərxana işinin aparıcısı) - Kərimov Eltun Rəhim oğlu
Məsləhətçi (vətəndaşların müraciətləri üzrə işin aparıcısı) - Xoçberov Aydın Məhəmməd oğlu
İnzibati işlər sektoru
Sektor müdiri-baş mühasib - Vakant
Aparıcı məsləhətçi (mühasib) - Murtuzov Elxan Zumrat oğlu
Baş mütəxəssis-sürücü - Həşimov İlham Əşrəf oğlu
Baş mütəxəssis-sürücü - Hüseynov Mehman Nəriman oğlu
Baş mütəxəssis-komendant - Bayramov Yaquf Məhəmməd oğlu
Hüquq və kadr məsələləri sektoru
Sektor müdiri - Vakant
Məsləhətçi - Papaxov Mehman Məhəməli oğlu
Məsləhətçi - Qardaşova Pirdas Əli qızı

**Yeni Balakən**

## Balakəndə növbəti vətəndaş qəbulu





Bu gün Balakən rayonunda “Azəristiliktəchizat” ASC-nin sədri İlham Mirzəliyev Balakən və Zaqatala sakinlərini qəbul edib.

Qəbuldan əvvəl “Azəristiliktəchizat” ASC-nin sədri İlham Mirzəliyev və Balakən rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin abid,5ə önünə gül dəstəsi düzərək, əziz xatirəsinə ehtiramlarını bildiriblər.Sonra rayon rəhbəri qonağı Heydər Əliyev Mərkəzi ilə tanış edib.

Rayonun Heydər Əliyev mərkəzində keçirilən qəbulda vətəndaşların müraciət və təklifləri dinlənilib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun operativ şəkildə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

**Yeni Balakən**

## İdarə müdiri Balakən rayonunda vətəndaşları qəbul edib



Yanvarın 15-da Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Günay Mahmudova Balakən rayonunda vətəndaş qəbulu keçirib.

Qəbul zamanı vətəndaşlar əsasən işlə təmin olunma, əmək müqaviləsinin artırılması və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşların müraciət, şikayət və təklifləri qeydiyyata alınıb. Onların bir qismi yerindəcə həllini tapıb, digər məsələlərin həlli istiqamətində isə müvafiq göstərişlər verilib.

Qeyd edək ki, idarənin inzibati binasında idarə müdiri tərəfindən vətəndaş qəbulu hər həftənin çərşənbə günü saat 15:00-dan 17:00-dək, məsul əməkdaşlar tərəfindən isə həftə içi hər gün eyni saatlarda keçirilir. Qəbula yazılmaq istəyən şəxslər əvvəlcədən 146-0-11 Çağrı mərkəzinə zəng edərək qəbula yazıla bilərlər.

**Yeni Balakən**










# Balakən rayonunda 20 Yanvar şəhidlərinin xatirəsi anılıb





Azərbaycan xalqının qan yaddaşına əbədi həkk olunmuş 20 Yanvar hadisələrindən otuz altı il ötür. Qanlı faciədən uzun illər keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, bu vəhşiliyi törədənlərə öz dərin nifrətini bildirir.

Müasir Azərbaycan tarixinin ən faciəli, eyni zamanda, xalqımızın azadlıq mübarizəsinin ən şanlı səhifələrindən olan 20 Yanvar qurbanlarının xatirəsi Balakən rayonunda dərin hörmətlə anılıb.

Qanlı Yanvar faciəsinin ildönümü ilə əlaqədar Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbər şəxsləri və kollektivləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri Şəhidlər xiyabanını ziyarət edərək şəhidlərinin xatirəsinə ucaldılmış abidənin önünə, həmçinin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmiş Vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzüb, şəhidlərin ruhuna dualar oxuyub, onların xatirəsini ehtiramla yad ediblər

Saat 12:00-da 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, rayon ərazisində avtomobillərin hərəkəti dayandırılıb.

**Yeni Balakən**



# Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev İtitala kəndində sakinlərlə görüşüb

2026-cı il yanvar ayının 13-də rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev İtitala kəndində səyyar qəbul keçirib. Qəbulda Balakən Rayon İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, xidmət təşkilatlarının rəhbər işçiləri və kənd sakinləri iştirak ediblər.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev çıxış edərək ictimai-siyasi sahədə baş verən mühüm hadisələrə toxunub, qarşıda duran vəzifələrdən danışıb. Həmçinin ölkəmizdə əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar, həyata keçirilən sosial siyasətdən bəhs edib. Balakən rayonunda icra olunan abadlıq-quruculuq işləri və əhalinin sosial problemlərinin həlli ilə bağlı görülən tədbirlər barədə iştirakçılara ətraflı məlumat verib.

İtitala kənd inzibati ərazi dairəsi üzrə nümayəndə German Balayev çıxış edərək kəndin əhalisi, sosial-iqtisadi inkişafı, məşğulluq vəziyyəti və ərazidə həyata keçirilən işlər barədə, həmçinin son səyyar qəbul zamanı qaldırılan məsələlərin icra vəziyyəti ilə bağlı məlumat verib.



Sonra kənd sakinlərinin müraciətlərinə baxılıb. Kənd sakinləri qaz sayğacının quraşdırılması, ünvanlı sosial yardımın ayrılması, yeni qoyulmuş elektrik transformatorunun şəbəkəyə qoşulması, kənd məktəbinin qarşısındakı ağacın budanması və digər məsələlərlə bağlı rayon rəhbərinə müraciət ediblər.

Vətəndaşların müraciətləri ayrı-ayrılıqda dinlənilib, məsələlər müzakirə edilib və həll olunması üçün aidiyyəti üzrə tapşırıqlar verilib.

Vətəndaşlar problemlərinin həlli istiqamətində göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirilən səyyar görüşlər mütəmadi olaraq davam etdirilir.

**Yeni Balakən**

# BALAKƏN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ TƏHSİL BAYRAMI





Bu gün Balakən Mədəniyyət Mərkəzində Tədrisdə İnnovasiyalar Mərkəzi maraqlı tədbir keçirdi. Tədrisdə İnnovasiyalar Mərkəzinin təşkilatçılığı ilə 28 dekabr 2025-ci il tarixində baş tutan bilik yarışında yüksək nəticə göstərən 148 şagird hədiyyə və sertifikatlarla təltif olunub.

Tədbir zamanı yalnız şagirdlər deyil, onların uğur qazanmasına zəmin yaradan müəllimlər də mükafatlandırılıb. Bu, həm gənc nəsil, həm də onları yetişdirən pedaqoqlar üçün böyük stimul olub.

Tədbirdə yüksək bal toplayan şagirdlər, valideynlər, onların müəllimləri və digər qonaqlar iştirak edirdilər. İştirakçılardan Balakən Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Turan Dibirov çıxışında təhsilin həyatımızdakı önəmindən danışaraq savadlı və bilikli gənclərin yetişdirilməsində Tədrisdə İnnovasiyalar Mərkəzinin rolunu yüksək qiymətləndirib. O, həm müəllimləri, həm də yüksək bal toplayan şagirdləri təbrik edib.

Çıxışının davamında Turan Dibirov valideyn kimi də söz alaraq, 600-dən yuxarı bal toplamış Canpolad Dibirovun atası olaraq mərkəzin fəaliyyətindən məmnunluğunu bildirib və işlərində uğurlar arzulayıb.

Tədbirə mədəniyyət mərkəzinin könüllüləri və şagirdlərin ifa etdiyi rəqs və mahnılar xüsusi rəng qatıb. Sonda isə iştirakçılar xatirə şəkli çəkdirərək bu unudulmaz günü yaddaşlara həkk ediblər.TİM rəhbərliyi tədbirin təşkilindəki dəstəyə görə Balakən RİH-ə,Balakən Mədəniyyət Mərkəzinə təşəkkürünü bildirir.

**Son söz**

Balakən Mədəniyyət Mərkəzində keçirilən bu tədbir bir daha sübut etdi ki, təhsil sahəsində əldə olunan uğurlar yalnız şagirdlərin deyil, həm də onların zəhmətkeş müəllimlərinin, dəstək verən valideynlərin və cəmiyyətin birgə zəhmətinin nəticəsidir. Tədrisdə İnnovasiyalar Mərkəzinin təşəbbüsü ilə reallaşan bilik yarışı gənclərin motivasiyasını artırmaqla yanaşı, bölgədə təhsilin inkişafına mühüm töhfə verdi.

Belə tədbirlər gələcəkdə daha çox savadlı, bilikli və yaradıcı gənclərin yetişməsinə zəmin yaradacaq. Balakən bu uğurları ilə bir daha göstərdi ki, elm və mədəniyyətin qovuşduğu məkan həmişə işıqlı gələcəyə aparır.

**Yeni Balakən**

# Balakəndə narkomaniyaya qarşı güclü mesaj: "Külə dönmüş arzular" səhnədə





Balakən, 28 yanvar – Balakən Rayon İcra Hakimiyyəti yanında Narkotiklərlə Mübarizə Komissiyası və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə nümayiş etdirilən "Külə dönmüş arzular" tamaşası narkomaniyaya qarşı mübarizənin vacibliyini bir daha gündəmə gətirdi.

Pakizə Hüseynova və Mirzəağa Məmmədovun ssenarisi əsasında hazırlanan tamaşa, Mədəniyyət Mərkəzinin bədii rəhbəri Zöhrə Bakeyevanın quruluşunda səhnəyə qoyuldu. Tamaşada narkomaniyanın insan həyatını necə məhv etdiyini, arzuları necə külə çevirdiyini bədii dillə əks etdirən səhnələr tamaşaçılarda dərin təsir oyatdı.

Tədbir çərçivəsində məktəblilərin çəkdiyi rəsm əsərləri və mövzuya dair kitab sərgisi nümayiş etdirildi. Bu əsərlər gənc nəsli düşündürmək, onları sağlam həyata yönləndirmək məqsədi daşıyırdı. Ardınca çıxış edən ŞZRMİ-nin Balakən rayon üzrə nümayəndəsi Şəfəq Hacıyeva narkomaniyaya qarşı mübarizənin dövlətin əsas prioritetlərindən biri olduğunu vurğuladı. O, gəncləri sağlam həyat tərzinə çağıraraq, hər kəsi bu sosial bəlaya qarşı birgə mübarizəyə səslədi.

## Səhnədə həyat dərsi

Mədəniyyət işçiləri Qürbət Muradov, Kəmalə Qurbanova, Vüqar Mikayılov, Rəfail Nəbiyev, Mədinə Çukayeva və dram dərnəyinin üzvləri – Zamin Yüzbaşiyev, Xacay Əhmədiyeva, Hikmət Qarayev, Ayxan Sahibovun ifasında təqdim olunan obrazlar tamaşaçılar tərəfindən böyük maraqla qarşılandı. Tamaşa narkomaniyanın faciəvi nəticələrini bir ailənin, bir gəncin taleyi üzərindən göstərərək, hər kəsə "sağlam seçim – sağlam gələcək" mesajını verdi.

Tamaşadan sonra narkomaniyaya qarşı mübarizəyə həsr olunmuş film nümayiş etdirildi. Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev tədbirin sonunda çıxış edərək, bu təşəbbüsün gənclərin maarifləndirilməsində mühüm rol oynadığını qeyd etdi və təşkilatçılara təşəkkürünü bildirdi.

## Son söz

Balakəndə keçirilən bu tədbir bir daha göstərdi ki, narkomaniyaya qarşı mübarizə yalnız dövlət qurumlarının deyil, bütün cəmiyyətin ortaq vəzifəsidir. "Külə dönmüş arzular" tamaşası gənclərə sağlam həyatın dəyərini, yanlış seçimlərin isə necə faciələrə yol aça biləcəyini bədii dillə çatdırdı.

Sonda səslənən təşəkkürlər və arzular bir mesajı gücləndirdi: sağlam gənclik – güclü gələcək deməkdir. Balakən ictimaiyyəti bu çağırışı ürəkdən qəbul edərək, narkomaniyaya qarşı mübarizədə həmrəy olduğunu bir daha nümayiş etdirdi.

**Yeni Balakən**




# Balakən Rayon Mərkəzi Xəstəxanasında həkimlərin yüksək peşəkarlığı və keyfiyyətli tibbi xidmətləri sayəsində daha bir pasiyentin həyatı xilas edilib

31.12.2025-ci il tarixində 1978-ci il təvəllüdlü qadın pasiyent çox ağır vəziyyətdə, "uşaqlığın və uşaqlıq yolunun dəqiqləşdirilməmiş qanaxması" diaqnozu ilə, cəmi 8% qan göstəricisi ilə Xəstəxananın Təcili Tibbi Yardım şöbəsinə daxil olub.Dərhal təcili müayinə aparılıb, ilkin tibbi müdaxilələr həyata keçirilib və vəziyyəti stabilləşdirildikdən sonra bir neçə gün ərzində intensiv müalicə aparılaraq əməliyyata hazırlanıb.

11.01.2026-cı il tarixində həyata keçirilən cərrahi əməliyyat uğurla başa çatıb. Əməliyyatdan sonra bir müddət Reanimasiya şöbəsində müalicə alan pasiyentin vəziyyəti qənaətbəxş hesab edildikdən sonra Ginekologiya şöbəsinə köçürülüb.

Həkimlərimizin fədakar əməyi, peşəkar yanaşması və komanda işi nəticəsində pasiyentimizin həyatı xilas edilib. Hər bir xəstə bizim üçün bir ümiddir, bir məsuliyyətdir və insan həyatına verilən ən ali dəyərdir.

**Yeni Balakən**

# ESWL artıq Balakəndə,"ELMAS" klinikdə






Alman istehsalı "BELMES" cihazı böyrək daşlarını 20-30 dəqiqə ərzində quma çevirir."ELMAS" klinikasında quraşdırılan,respublikada tək nümunə olan bu cihaz 25 mm-dək böyrək daşlarını əməliyyatsız,kəsiksiz,dəliksiz,ağrısız,qansız xəstənin bədənindən xaric etmək üçün vətəndaşların istifadəsinə verilmişdir.

ESWL (Extracorporeal Shock Wave Lithotripsy) böyrək daşlarını fokuslamaq və parçalamaq üçün bədəndən kənardan göndərilən yüksək enerjili səs dalğalarından istifadə edən bir prosedurdur. Qeyri-cərrahi və qeyri-invaziv üsul olan ESWL, adətən ambulator şəraitdə 2.5 sm-dən kiçik daşlar üçün tətbiq edilən, daşların quma bənzər hissəciklərə parçalanaraq təbii yolla atılmasını təmin edən effektiv müalicə üsuludur.

Necə işləyir: Daşın yeri ultrasəs və ya rentgen (flüoroskopiya) köməyi ilə müəyyən edilir və onu parçalamaq üçün şok dalğaları birbaşa daşın üzərinə yönəldilir.

Üstünlükləri: Anesteziya və ya xəstəxanaya yerləşdirmə tələb etməyən və tez sağalmanı təmin edən bir üsuldur.

Qısacası, yarım saat ərzində böyrək daşlarından azad olub evinə gedirsən.Qiyməti də əməliyyat qiymətindən qat-qat ucuz.

"ELMAS"-da daha bir yenilik isə klinikanın təcili tibbi yardım maşınının,ambulansın istifadəyə verilməsidir.Günün istənilən vaxtı,ölkənin istənilən nöqtəsinə xəstəni nəql etmək və nəql zamanı xəstənin vəziyyətini nəzarətdə saxlamaq üçün son model cihazlarla təchiz edilmiş ambulans vətəndaşların istifadəsindədir.

**Yeni Balakən**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. H.Əliyev pr. 40
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100